## AQTA ilə əməkdaşlıq fəaliyyətləri

- Avropa İttifaqı ilə əməkdaşlıq əsasında 2020-ci il 16 noyabr - 2023-cü il 15 fevral tarixlərini əhatə edən “Azərbaycanda sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi” adlı Tvinninq layihəsi uğurla icra edilmişdir. Layihənin komponentləri çərçivəsində müvafiq sahələrdə hüquqi bazanın təkmilləşdirilməsi, həmçinin bitki sağlamlığı və bitki mühafizəsi sahələrində nəzarət sisteminin inkişafı ilə bağlı əhəmiyyətli nəticələr əldə edilmiş, bu istiqamətdə müasir tələblərə cavab verən laboratoriya infrastrukturunun yaradılması, kadr və elmi potensialın gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elektron informasiya sisteminin qurulması və digər əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.
- 2023-cü il 9 fevral tarixində “Azərbaycanda sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi” adlı Tvinninq layihəsinin yekunlarına dair konfrans təşkil edilmişdir. Konfransda Latviya Respublikasının Dövlət Bitki Mühafizə Xidmətinin direktoru, layihə rəhbəri Kristine Lomakina və Litva Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Bitki Xidmətinin rəhbəri Sergejus Fedotovas, eləcə də həmin qurumlardan nümayəndələr iştirak etmiş, müxtəlif çıxışlar zamanı layihənin əhəmiyyətindən danışılmış və bu çərçivədə görülən işlərin gələcəkdə əlaqələrin daha da genişlənməsinə verəcəyi töhfə vurğulanmışdır.
- 2022-ci il 7 iyun tarixində AQTA sədri Qoşqar Təhməzli Avropa İttifaqının ölkəmizdəki səfiri Peter Mixalko ilə görüşüb. Görüşdə Aİ ilə qida təhlükəsizliyi sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.
- 2021-ci il 24 sentyabr tarixində Aİ-nin Azərbaycandakı nümayəndəliyinin proqram meneceri Rayner Freund AQTİ-nin laboratoriyalarına səfər edib. Səfər zamanı laboratoriyaların fəaliyyəti, müayinə metodları və Aİ ilə əməkdaşlıq perspektivləri müzakirə olunub. Qida təhlükəsizliyi və sağlamlıq sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi məqsədi ilə fikir mübadiləsi aparılıb.